# PENECRETE




İncə üyüdülmüş, quru, səthə çəkilən tikinti hidroizolyasiya məhlulu.

P1, B30, W14, F300, “Penecrete”. QOST 31357-2007 İncə üyüdülmüş Portland sementindən, müəyyən qranulometriyada kvars qumundan və aktiv kimyəvi komponentlərdən ibarətdir.

Təyinatı: Beton və dəmir-beton konstruksiyalarda sabit çat yerlərinin, bənd yerlərinin, kommunikasiya girəcəklərinin, birləşmələrin və qoşmaların hidroizolyasiyası üçün istifadə edilir.

Üstünlükləri:
- ✓ yüksək davamlılıq və sukeçirməzlik;
- ✓ özülə möhkəm yapışma;
- ✓ büzüşmənin olmaması;
- ✓ kommunal-içməli su təchizatında istifadə edilmə;

TEXNİKİ XÜSUSİYYƏTLƏRİ:

| GÖSTƏRİCİNİN ADI | TƏLƏBLƏR | FAKTİKİ DƏYƏRİ | ÖLÇÜ VASİTƏLƏRİ |
|---|---|---|---|
| QURU QARIŞIM | | | |
| Rütubətlilik | 0,2%-dən artıq olmayaraq | 0,15% | QOST 8735 |
| Doldurucunun dənəciklərinin böyüklüyü | 0,63 mm | 0,63 mm | |
| Ən böyük dənəciklərin miqdarı | 0,5%-dən çox olmayaraq | 1,77% | |
| Kütlə sıxlığı | 1260±100 kq/$m^3$ | 1260kq/$m^3$ | |

| HARÇ QARIŞIMI | | | |
|---|---|---|---|
| Hərəkətlilik | Pk1 | Pk1 | QOST P5802 |
| İlkin hərəkətliliyin qorunma səviyyəsi | 30 dəqiqə | 30 dəqiqə | |
| Susaxlama qabiliyyəti | 95%-dən az olmamaqla | 99,05% | |
| QARIŞIM | | | |
| 1 sutka ərzində əyilmə zamanı gərilməyə dözümlülük dərəcəsi | Btb 3,6-dan az olmamaqla | Btb4,4 (5,7 Mpa) | QOST 310.4 |
| 1 sutka ərzində sıxılmaya davamlılıq dərəcəsi | B15-dən az olmamaqla | B20 (25,6MPa) | |
| 28 sutka ərzində əyilmə zamanı gərilməyə davamlılıq dərəcəsi | Btb 5,2-dən az olmamaqla | Btb 6,0 (7,9MPa) | |
| 28 sutka ərzində sıxılmaya davamlılıq dərəcəsi | B 30-dan az olmamaqla | B30 (44,4Mpa) | |
| Özüllə yapışma möhkəmliyi | 2,0 MPa-dan az olmamaqla | 2,4 Mpa | QOST P58277 |
| Şaxtayadavamlılıq markası | F 300-dən az olmamaqla | F 400 | |
| Kontakt zonasında şaxtayadavamlılıq markası | Fкз 100-dən az olmamaqla | Fкз 100 | |
| Sukeçirməzlik üzrə markası | W14 | W18 | QOST12730.5 |
| Qəbul edilə bilən istismar temperaturunda məhlulun dərəcəsi | İ4 | | QOST 20910 |
| İstismar temperaturu | -60° C-dən +400° C-yə qədər | | - |
| ƏLAVƏ XÜSUSİYYƏTLƏR | | | |
| Qablaşdırma | Çoxqatlı torbalar (25 kq), plastik vedrələr (5,10, 25 kq) | | |
| Saxlama şərtləri və daşınma | Çoxqatlı torbalar quru şəraitdə saxlanılmalıdır, plastik vedrələr istənilən rütubətdə və temperaturda saxlanıla bilər. | | |
| Zəmanətli saxlama müddəti | Çoxqatlı torbalar – 12 ay, plastik vedrələrdə 18 ay; zavod qablaşdırmasının hermetikliyinin pozulmaması şərti ilə | | |

# İSTİFADƏ ÜÇÜN TƏLİMAT

## İş konstruksiyanın səthinin temperaturu +5º-dən +35º C olduqda aparıla bilər.

### Quru qarışımın sərfiyyatı

1,50 kq/mp (25x25 mm dəlikdə), dəliyin ölçüsü artdıqda proporsional olaraq sərfiyyat da çoxalır.

### Təhlükəsizlik tədbirləri

Rezin əlcəklərdən, pambıq əlcəklərdən, respiratordan, qoruyucu eynəklərdən, qalın parçadan tikilmiş xüsusi iş geyimlərindən, çəkmələrdən istifadə etmək tövsiyə olunur. Qarışım dəriyə və ya gözlərə düşdüyü təqdirdə dərhal su ilə yuyulmalı və həkimə müraciət edilməlidir.

### Səthin hazırlanması

Divarkəsicinin və kömürsındıran çəkicin köməkliyi ilə çat, bənd, boşluq, kommunikasiya qovşaqlarının, birləşmələrin uzununa 25x25 mm-dən az olmamaqla, dəlik açmaq lazımdır. Dəliyi metal xovlu fırçanın köməkliyi ilə zibildən və yumşaq betondan təmizləmək, bolluca nəmləndirmək və “Penetron” harç qarışımı ilə bir lay astarlamaq tövsiyə olunur (sərfiyyat 0,1 kq/m.p).

### QARIŞIMIN HAZIRLANMASI

Təmiz sudan və təmiz qabdan istifadə etmək lazımdır. 0,14–0,16 l suyu 1 kq quru qarışıma qatmaq, yaxud 5 hissə quru qarışımı 1 hissə su nisbətində 2 dəqiqə ərzində qatı plastinəbənzər bir məhlul alınana qədər qarışdırmaq lazımdır. 30 dəqiqə ərzində su əlavə edilmədən müntəzəm şəkildə qarışdırılaraq istifadə olunmalıdır.

### ÇƏKİLMƏSİ

“Penetron” harç qarışımı çəkildikdən dərhal sonra hazırlanmış dəliyi “Penecrete” harç qarışımı ilə sıx bir şəkildə doldurmaq lazımdır. Təbəqənin qalınlığı 30 mm-i keçməməlidir. Dərin dəliyi bir neçə təbəqə ilə doldurmaq tövsiyə olunur. 1-2 saatdan sonra doldurulmuş dəliyi və ətrafdakı beton hissəni nəmləndirmək və “Penetron” harç qarışımı ilə iki təbəqə işləmək lazımdır.

### İşlənmiş səthə qulluq qaydaları

İşlənmiş səthi nəmləndirmək və mexaniki təsirlərdən, mənfi temperaturdan və yağışdan 3 sutka ərzində qorumaq lazımdır.

“Penecrete" quru qarışığı 25 kq-luq qablaşdırma ilə hermetik (möhürlənmiş) plastik vedrələrdə verilir.